**"Ü M İ D" SOSİAL İNKİŞAFA DƏSTƏK İCTİMAİ BİRLİYİ**

*İNFORMASIYA BÜLLETENİ №2, 2013*

# *"Ümid" SİD İB-in Avropa İttifaqı tərəfindən elan edilmiş "Azərbaycanda Regional və Kənd İnkişafı üzrə Yerli Təşəbbüslərə Dəstək" müsabiqəsinə təqdim edilmiş yeni layihə təklifi qalib gəlmişdir*

"Ümid" SİD 2013-cü ilin iyul ayında Avropa İttifaqına "Kəndlərin Dayanıqlı İnkişafı Təşəbbüsü" layihəsini təqdim etmiş və müsabiqənin qaliblərindən biri olmuşdur. Beləliklə, 2 dekabr, 2013-cü il tarixdə, "Ümid" SİD İB və Avropa İttifaqı arasında layihənin icrasının 2014-cü ilin yanvarından başlanması haqqında Qrant Müqaviləsi imzalanmışdır. 26-aylıq layihənin icrası nəticəsində meyvə, quru meyvə, giləmeyvə və südçülük sektorlarının yüksək-səviyyəli inkişafı ilə milli iqsadi inkişafa təkan veriləcək, ərazidə yaşayan fermerlərin və gənclərin bacarıqları artırılacaq, məşğulluq imkanları artırılacaq və mərkəzi və yerli hakimiyyıət orqanlarının, həmçinin icma və özəl sektorun Quba-Xaçmaz regionunda xidmət sahələrinə cəlbi genişləndiriləcək.

***Layihənin məqsədi kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı sahələrini birləşdirən iqtisadi inkişaf modeli vasitəsilə Quba-Xaçmaz iqtisadi zonası (Quba, Qusar, Xaçmaz və Şabran rayonları) kəndlərinin davamlı inkişafının gücləndirilməsidir.***

Layihənin icrası nəticəsində - ucqar yerlərdə sosial infrastruktura çıxış yaxşılaşacaq; gənclərin şəhərlərə və digər regionlara miqrasiyası azalacaq; hədəf icmalarda əhalinin gəlirinin həcmi artacaq; yeni gəlir gətirən sahələr yaradılacaqdır; hədəf icma üzvlərinin əsas xidmətlərə çıxışı  təkmilləşəcək; azı 1500 nəfər məsləhət və təlimlər vasitəsilə öz bacarıqlarını artıracaqlar.

***"Ümid" SİD İB-nin missiyası aztəminatlı insanların sosial, iqtisadi, təhsil və kənd-təsərrüfatı üzrə problemlərinin həllinə dəstək verməkdən ibarətdir.***

## ***Bu sayımızda:***


| | |
|---|---|
| *"Ümid" SİD yeni layihə udmuşdur* | 1 |
| *Azərbaycanda məcburi köçkünlər üçün peşə təlimi və gəlirin yaradılması* | 2 |
| *Azərbaycanda məskunlaşmış qaçqın və sığınacaq axtaranların bacarıqlarının artırılması* | 3 |
| *Uğur hekayələri* | 4 |
| *"Ümid" SİD Azərbaycanda Sosial-İqtisadi İnkişaf Fəaliyyətlərini müvəffəqiyyətlə davam etdirir* | 5-6 |

## Azərbaycanda məcburi köçkünlər üçün peşə təlimi və gəlirin yaradılması

Ötən illərdən fərqli olaraq bu il "Azərbaycanda məskunlaşmış məcburi köçkünlər və qaçqınlar üçün peşə təlimi və gəlirin yaradılması" layihəsinin həyata keçirilməsində və faydalananların sayının artmasında BPRM (ABŞ Dövlət Departamentinin Əhali,Qaçqın və Miqrasiya Bürosu) təşkilatı BMT QAK-a dəstək olmuşdur. Layihə aşağıdakı istiqamətlər üzrə həyata keçirilmişdir: i) **Usta yanında şagird hazırlanması metodu ilə məcburi köçkünlərin peşə bacarıqlarının artırılması və onlara MBİL qrantlarının verilməsi; ii) Məcburi köçkün gənclərin kompüter və internetdən istifadə bacarıqlarının artırılması; iii) Biznes təlimləri və məsləhətlər.**



Gənclərin peşələrə olan marağını, onların öyrənmə bacarığını və seçim kriteriyaıarını nəzərə alaraq, 169 ərizəçi arasından 51 gənc seçilərək 12 peşə üzrə təlimlərə cəlb edilmiş və müvəffəqiyyətlə təlimləri bitirmişlər.
Layihə müddəti ərzində UYŞH kursunu bitirmiş 51 MK gəncdən 37 nəfəri öyrəndikləri peşə üzrə iş tapmış, öz biznesini qurmuş və ya ev şəraitində fəaliyyət göstərirlər - UYŞH kursuna cəlb olunmuş İbrahimli Vüsalə qadın dərzisi kursunu bitirdikdən sonra Sumqayıt şəhəri, Sülh küçəsi 2 ünvanında fəaliyyət göstərən "Gilan Tekstil Park" fabrikində dərzi olaraq fəaliyyətə başlamışdır. Bundan əlavə, qənnadçı sahəsini bitirən Fəhrədova Xatirə özünə kiçik qənnadçı sexi açaraq fəaliyyətə başlamış, eyni sahəni bitirən Fikrətli Aytəkin həmin qənnadçı sexində işə düzələrək fəaliyyətini davam etdirmişdir.
Layihə öhdəliklərinə uyğun olaraq, UYŞH üzrə usta/təlimçilərə pedaqoji bacarıqların inkişaf etdirilməsi istiqamətində "Təlimçilər üçün Təlim (ToT)" mövzusunda 10 aprel 2013-cü il tarixdə "Ümid" SİDİB-in Sumqayıt ofisində təlim təşkil olunmuşdur. Təlim "Ümid" SİDİB əməkdaşları tərəfindən həyata keçirilmişdir.

Hesabat dövrü ərzində layihənin digər bir qolu olan biznes təlimləri üzrə biznes qurmaq istəyən və ya mövcud biznesini inkişaf etdirmək istəyən məcburi köçkünlər üçün "Ümid" SİD İB Sumqayıt ofisində, "Laçın", "Araz", "Mahruzlu","Şəfəq", "Pansionat", "Xələc", "Ərgünəş", "Energetika sanatoriyası və "Şəfa" icmalarında təlimlər təşkil olunmuşdur. Bu təlimlərin məqsədi sahibkarların rəqabətə davamlı olmaları, bazarda uğur qazanmaq, dövlət qurumları ilə münasibətlərin qurulması, aylıq gəlir və xərclərin balanslaşdırılması və digər bacarıqlarının artırılması olmuşdur.

"Sahibkarların kredit təşkilatlarına çıxışının yaxşılaşdırılması" ilə əlaqədar, Sumqayıt ofisində sahibkarlarla **"**Mol bulak" Kredit təşkilatının nümayəndələri ilə birgə görüş təşkil edilmişdir. Görüşdə kredit təşkilatının nümayəndələri kredit şərtləri ilə sahibkarları tanış etmiş və sahibkarları maraqlandıran sualları cavablandırmışlar. Görüşün nəticəsi olaraq, gənc ustalar bizneslərini qurmaq üçün həmin kredit təşkilatına müraciət etmiş və xidmətlərindən faydalanmışlar.

MBİL üzrə öz biznesini qurmaq və ya inkişaf etdirmək istəyən 52 MK sahibkar "Ümid" SİDİB təşkilatına biznes planla müraciət etmişdir. Biznes planlar rüblük gəlir və mənfəət, müştərilər, gənc sahibkarların başlanğıcda biznesə verəcəyi fərdi töhfələrə nəzərən qiymətləndirmişdir və nəticədə 31 Biznes Plan MBİL qrantları ilıə təmin edilmişdir.

UYŞH sahələri ilə paralel Sumqayıt ofisində MK gənclər üçün kompüter təlimləri də təşkil edilmişdir. 214 MK gənc MS Word, Excel, Power Point, Outlook Express, Internet Explorer proqramları üzrə təlimlərə cəlb edilmiş və bunlardan 211 nəfəri kursları müvəffəqiyyətlə bitirmişlər. Sumqayıt ofisində MK gənclər üçün yaradılmış kompüter təlimi ilə yanaşı pulsuz internet xidməti də fəaliyyət göstərir. 235 nəfər MK elektron dərsliklərdən faydalanır, gündəlik yenilikləri izləyir, facebook, twitter və s. kimi sosial şəbəkələrdə aktiv iştirak etmiş, müxtəlif saytlarda qeydiyyatdan keçərək məlumatlar əldə etmişlər.



### VALİDEYN HƏSƏNOVA GÜLÜNÜN UĞUR HEKAYƏSİ

*Qarabağ döyüşündə həyat yoldaşımı itirdim.1993-cü ilin noyabr ayında 3 körpəmlə Sumqayıt şəhərində uşaq bağçasının kiçik bir yarımçıq tikintisində müvəqqəti məskunlaşdıq.Həyat uğrunda mübarizə bundan sonra başladı.Körpələri böyütmək, onların sağlamlıqlarını qorumaq, təhsil vermək tək mənim üzərimə düşdü. İdarə, müəssisələrdə, məktəblərdə xadiməlik edərək onları böyütdüm. Lakin maddi cəhətdən korluq çəkdiyimiz üçün heç biri ali təhsil ala bilmədi Mobil telefonların təzə çıxan vaxtı idi. Oğlumun bu sahəyə marağını görüb istədim ki, onu telefonların təmiri sahəsinə aid bir usta yanında yerləşdirim. Lakin hansı ustaya müraciət etdimsə məndən onu öyrətmək üçün pul istədilər. Bu radələrdə icma lideri mənə şad bir xəbər verdi. Belə ki, "Umid" adlı yerli qeyri-hökumət təşkilatı köçkün gənclərə pulsuz müxtəlif tipli sənətlər öyrədirdi. Ərizə yazıb seçimdən keçdi və 6 aylıq mobil telefon təmiri sahəsi üzrə kursu müvəffəqiyyətlə bitirdi. Bir neçə il bu sahə üzrə bilgilərini artıraraq kamil ustaya çevrildi.Vaxtı ilə usta yanında şagird olan oğlum artıq bir neçə ildir ki, bu təşkilatın nəzdində şagirdlər öyrədir. Çox sağ olsun UNHCR və PRM təşkilatı. Bu təşkilatın maddi dəstəyi ilə qrant alaraq oğluma müasir tipli 1 ədəd Noutbook alınıb verildi. Artıq o, şagirdlərə mobil telefonlara müasir tipli proqramların köçürülməsini və digər əməliyyatları asanlıqla öyrədir. Bu yaxşılığa görə "Umid" təşkilatına, xüsusilə də donor təşkilatlara öz dərin minnətdarlığımızı bildiririk.*

# Azərbaycanda məskunlaşmış qaçqın və sığınacaq axtaranların bacarıqlarının artırılması

BMT QAK tərəfindən qeydiyyata alınmış qaşqın və sığınacaq axtaranların çoxu hal-hazırda Bakı və Sumqayıtın şəhər ərazilərində yaşayırlar. BMT QAK-ın icraçı tərəfdaşı olan “Həyat” QHT tərəfindən 2011-ci ildə aparılan monitorinqə görə, qaçqın və sığınacaq axtaranların ailələri standartlarlad çox aşağı səviyyədə olan şəraitdə yaşayırlar və monitorinq aparılmış ailələrin 80%-I çox yoxsul şəraitdə yaşayırlar. BMT QAK hesabatlarına əsasən, qaçqınların iş üçün icazəsi yoxdur, lakin Məhdud sayda qaçqınlar, əsasən də kişilər, qeyri-qanuni işlərlə məşğul olurlar, məsələn tikintidə fəhlə kimi, müxtəlif sexlərdə xidmətçilər kimi işləyir, kiçik təsərrüfatla məşğul olur, əl işərinin düzəldilməsi və satışı ilə məşğul olurlar. Buna baxmayaraq, belə işlər mövsümi olur və gündəlik ehtiyacları tamamilə ödəyə bilmir. Beləliklə də, qaçqınlar hələ də xarici yardımlardan asılı halda yaşayırlar.



“Usta Yanında Şagird Hazırlığı” metodikası üzrə ilə təşkil edilən peşə təlimləri qaçqına peşə bacarığı verməklə, onu qəbul etmiş ölkənin iqtisadi şəraitinə uyğunlaşmaq, sahibkar kimi formalaşmaq və inkişaf etməyə şərait yaradır. Beləliklə, 76 ərizəçinin içərisindən 30 qaçqın gənc qadın bərbəri, vizajist, kosmetoloq, kompüter təmiri, Delfi proqramı, tibb bacısı, masaj kimi peşələr üzrə kurslara cəlb olunmuşlar.

***Usta Yanında Şagird Hazırlığı metodu ilə təşkil edilən peşə kursalara maraq getdikcə artır. Bu prosesə təkan verən səbəblərdən biri bu il layihə çərçivəsində peşə kurslarını bitirib və öz işini quran qaçqınlara verilən qrantlar olmuşdur. Digər tərəfdən yeni peşə sahələrin təşkili də öz müsbət təsirini göstərir. Məsələn, ötən və bu ildə tibb bacısı və masaj kurslarının təşkili müraciətlərin sayının artmasına səbəb olmuşdur. Çox arzu olunan sahələrdən biri də şirniyyat və aşbaz kurslarıdır. Lakin Bakı şəhərində belə kursların təşkili üçün çox vəsait tələb olunur, bu üzdən də həmin kursun təşkili hələ ki mümkün olmamışdır.***



2012-ci illə müqayisədə kompüter proqramlarını öyrənmək istəyənlərin də sayı 40% qədər artmışdı. Bunun səbəbi, ilk növbədə, əsasən gənclərdə kurslara sönməyən marağının olması və digər tərəfdən isə 2012-ci ilin sonu və 2013-cü ildə Azərbaycana yeni gələn qaçqınların sayının artması idi. Layihəyə görə 100 nəfər qaçqının kompüter bacarığının artırılması planlaşdırılırdı, lakin faktiki olaraq 103 nəfər Adobe Photoshop, Corel Draw və MS Office proqramları üzrə kompüter təlimlərinə cəlb edilmişlər. Layihə müddəti ərzində daha yaxşı texniki göstəriciləri olan kompüterlərin quraşdırılaraq istifadəyə verilməsi təbii ki, istifadəçilərin sayının artmasına səbəb olmuşdur, çünki qaçqınların internetə olan tələbatlarını ödəyən əsas yer QQGM-də fəaliyyət göstərən kompüter mərkəzidir. Bütövlükdə, internet xidmətindən istifadə edənlərin sayı 874 nəfər olmuşdur.

BMT QAK tərəfindən maliyyə yardımlarının məhdudlaşdırılması və, bütövlükdə, Azərbaycanda qaçqınların bu gün ki iqtisadi durumu onları sahibkarlıq fəaliyyətinə yönəldir və bu baxımından biznesin inkişafı sahəsində təlimlərin və məsləhətlərin verilməsi zərurəti ön plana çıxır. Layihənin əvvəlində ilkin araşdırmalar göstərmişdir ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan və məşğul olmaq istəyən (UYŞH kurslarının müdavimləri) qaçqın və sığınacaq axtaranların, fəaliyyət göstərdikləri iqtisadi mühütdə uçot və xərclərin hesablanması, marketinq araşdırmaları, biznes planların hazırlanması, qeydiyyat və vergi sahəsində bilgilərinin səviyyəsi aşağıdır. Bunu nəzərə alaraq , qaçqın gənclər 2 dildə—Azərbaycan və Rus dillərində Sahibkarlıq fəaliyyəti , Uçot və xərclərin hesablanması, Marketinq və reklam, Vergi və qeydiyyat, Biznes planın hazırlanması mövzuları üzrə təlim və məsləhətlərlə təmin edilmişlər.

Layihənin əsas vəzifələrindən biri uğurlu biznesi dəstəkləmək idi. Qrantın verilməsi üzrə yaradılmış komissiya, müraciət edənlərin biznes planlarını, araşdırmaların nəticələrini, eləcədə layihə üzrə qrantın verilməsi meyarlarını əsas götürərək, 20 biznesə qrantın verilməsinə qərar vermişdir. MBİL qaçqınlar üçün böyük əhəmiyyət kəsb edir. Bunu cari və digər layihələr çərçivəsində müraciət edənlərin sayından görmək olur. Keçirilən monitorinqlərin nəticələri də göstərmişdir ki, qrant almış qaçqın ailələrinin iqtisadi durumu nisbətən yaxşılaşmışdır.

*2012-ci ilin mart-aprel aylarında, “Ümid” SİD İB MK-lərin əsas problemlərini müəyyənləşdirmək üçün Sumqayıt şəhərində yerləşən MK icmalarında araşdırça aparmışdır. Bu araşdırmanın nəticələrinə əsasən, MK-lərin əsas ehtiyacları kimi açağıdakı problemlər aşkar edilmişdir: - Müasir bazar ehtiyacları üzrə məlumatın azlığı; - Biznes qurmaq və idarə etmək üçün bilik və bacarıqların azlığı; - İnkişaf, gəlirin yaradılması və kredit təşkilatlarına müraciət etmək üçün material və maliyyə imkanlarının çatışmazlığı; - Məhdud computer bacarıqları.*

## Valideyn Nəcəfov Ağarzanın uğur hekayəsi



İş qabiliyyətimi itirdiyimdən ailəmizin dolanışığı oğlum Elşadın üzərinə düşdü.O çalışdığı sexdə müasir avadanlıqların olmadığı üçün müştəriləri çox az olurdu. Sex üçün yeni alətlər almağa imkanımız yox idi. Bu yaxınlarda oğluma bu sənəti öyrədən təşkilatın nümayəndələri onun işlədiyi sexə baş çəkdilər. Vəziyyətlə tanış olduqdan sonra oğluma kömək etməyə söz verdilər. Lazım olan müasir tipli avadanlıqların alınması üçün müəyyən bir vaxt ərzində sənədlər hazırlandı, qrant əldə etmək üçün oğluma biznes planın hazırlanmasına kömək göstərildi. Tez bir zamanda "Ümid" təşkilatı tərəfindən 610 AZN manatlıq avadanlıq alınıb verildi. Bunun sayəsində onun gündəlik müştərilərinin sayı əvvəlki aylarla müqayisədə xeyli artdı. 20 il köçkünçülük həyatı dövründə ailəmizə demək olar ki,ən böyük maddi kömək məhz UNHCR və PRM təşkilatının dəstəyi ilə "Ümid" SİDİB tərəfindən edilmişdir. Yuxarıda adları çəkilən təşkilatlara, onların rəhbərliklərinə öz dərin minnətdarlığımızı bildiririk.



Beynəlxalq və yerli təşkilatların dəstəyi ilə sahibkarlıq fəaliyyəti ilə məşğul olan qaçqınlara qrantlar verilirdi. Bu qrantlar biznesin və sahibkarlıq fəaliyyətinin inkişafına yönəlirdi. Qrant alanlardan biri İran qaçqını Heydəri Parisə idi.

Hələ İranda olarkən Parisənin şəxsi qadın salonu var idi. Bu peşəyə də elə İranda yiyələnmişdi. Lakin sonradan yaranmış vəziyyətə görə Parisə ailəsi ilə birgə İranı tərk edərək Azərbaycanda sığınacaq tapmışdı. Bu gün Parisə ailəsi ilə birgə Bakının Pirşağı qəsəbəsində yaşayır. Azərbaycanda olduğu İlk dövr çox çətin idi. Lakin bir müddətdən sonra Parisənin həyat yoldaşı iş tapa bilmiş, nəhayət ki, uşaqlarda məktəbə gedə bilmişlər. Parisə isə Qaçqın Qadın və Gənclər Mərkəzində Azərbaycan dili və kompüter kurslarına gəlirdi. Vəziyyətin ağır olmasına baxmayaraq, Parisə qadın salonu barədə hər zaman düşünürdü və inanırdı ki, nə vaxtsa o peşəsini yenə bərpa edəcək. Müəyyən müddətdən sonra yoldaşı ona maddi kömək edir və Parisə imkan çərçivəsində müvafiq avadanlıqları alır. Onun peşəkarlığı öz işini edir və tez bir zamanda ətrafdakı qonşular onun xidmətindən istifadə etməyə başlayırlar. Lakin Parisə başa düşürdü ki, ev şəraitində davamlı və uğurlu fəaliyyəti, ən əsası isə rəqabət dözmək üçün o öz bacarıqlarını təkmilləşdirməlidir. Beləliklə Parisə "Ümid" təşkilatına müraciət edərək qadın bərbəri kurslarına yazılır. BPRM və BMT QAK-ın dəstəyi ilə "Ümid" SİD tərəfindən həyata keçirilən "Azərbaycanda məskunlaşmış qaçqın və MK üçün peşə təlimi və gəlirin yaradılması" layihəsi çərçivəsində Parisə şəhərin mərkəzində fəaliyyət göstərən qadın salonuna şagird qismində gedir. Hər gün salona gələrək, o ustaların dediklərinə diqqətlə qulaq asır və praktiki bacarıqlarını təkmilləşdirməyə çalışırdı. Boş vaxtlarında isə mərkəzə gələrək internetdən özünə lazım olan məlumatları toplayırdı. Kursları bitirdikdən sonra Parisə "Ümid"-in təşkil etdiyi biznes təlimlərində iştirak edirdi. Sonra Parisə qrantın alınması üçün biznes planla təşkilata müraciət edir. Parisə qrantı almağa müvəffəq olur və beləliklə öz texniki bazasını genişləndirir. Bu gün Parisə, ev şəraitində olsa da belə, lazımi səviyyədə qadınlara bərbər xidməti göstərir. Eyni zamanda Parisə bir neçə xarici şirkətlərlə əlaqə yaradaraq öz işi üçün lazım olan materialları və avadanlıqları əldə edir.

***"Ümid" SİD İB əqli və fiziki cəhətdən qüsurlu, aztəminatlı və valideyn himayəsindən məhrum olan uşaqlara humanitar xidmət göstərmək ənənəsini davam etdirmişdir. Belə ki, 14 gənc ustamız tərəfindən "SOS" uşaq kəndləri təşkilatının 50 nəfər üzvünə kişi və qadın bərbərləri üzrə xidmət göstərilmiş və bu uşaqların böyük sevincinə səbəb olmuşdur.***
***May ayında, Yaponiya dövlətinin "RİSSHO KOSEİ KAİ" təşkilatının göndərdiyi 250 ədəd "Xəyal boxçaları" adlı qeyri-ərzaq humanitar yardımları "Ümid" SİDİB- nin əməkdaşları və Yaponiyadan gələn 22 nəfər nümayəndənin iştirakı ilə "Xələc" və "Qayğı" icmalarında uşaqlara təqdim olunmuşdur.***

USAID FROM THE AMERICAN PEOPLE

# "Ümid" SİD "Azərbaycanda Sosial-İqtisadi İnkişaf Fəaliyyəti"ni müvəffəqiyyətlə davam etdirir

EAST·WEST MANAGEMENT INSTITUTE

***SEDA-nın şüarı:** Regional inkişaf naminə vətəndaşların iştiraklılığının artırılması*

***SEDA-nın mesajları:***
*Əməkdaşlığın genişləndirilməsi*
*İqtisadi imkanların yaradılması*
*Bacarıqların artırılması*
*Vətəndaş cəmiyyətinin cəlbi*

2013-cü ildə Aran və Şimal regionlarında yeni icmaların seçilməsi ilə əlaqədar 72 icmada araşdırmalar parılmış və araşdırılmış icmalar haqqında "qısa siyahı" hazırlanmışdır. Qısa siyahılar əsasında "Layihə seçim komissiyası" tərəfindən əməkdaşlıq üçün 18 icma seçilmişdir. 2013- cü il ərzində 18 icmada layihə barədə məlumatların verilməsi və İİŞ üzvlərinin seçilməsi məqsədi ilə 36 Ümumi İcma görüşü keçirilmişdir. Aran və Şimal regionları üzrə 18 icmada 179 nəfərdən ibarət olan 18 İİŞ-ı yaradılmışdır.

**Bacarıqların artırılması-Dəyirmi masalar:** İİŞ üzvlərinin bacarıqlarının və layihə fəaliyyətlərindəki fəallıqlarının artırılması məqsədi ilə, Şimal regionu üzrə 10 və Aran regionu üzrə isə 6 icmada "Ehtiyacların müəyyənləşdirilməsi və sorğuların keçirilməsi", "Sorğuların təhlili və İcma ehtiyaclarının qiymətləndirilməsi", "Layihə təklifinin hazırlanması", "Layihənin texniki təsvirinin hazırlanması" və "LTT və smetanın müzakirəsi" mövzularında 69 Dəyirmi Masa keçirilmişdir.

**Təlimlər:** İİŞ üzvlərinin bacarıqlarının artırılması məqsədi ilə, Şimal və Aran regionları üzrə 25 icmada İİŞ üzvlərinə "Dayanıqlıq və istismar planı", "İcmanın uzunmüddətli fəaliyyət planı", "Effektiv təqdimat", "Danışıqların aparılması", "Komanda işi və liderlik", "Səfərbərlik" , "İcma fondu və icma töhfəsinin idarə olunması", "Ehtiyacların qiymətləndirilməsi" və "Layihə təklifinin yazılışı" mövzularında 157 Təlim keçirilmişdir. Təlimlər zamanı İİŞ üzvlərinə mövzular üzrə müvafiq bilik və bacarıqlar ötürülmüşdür.

**Layihə Texniki Təsviri:** 25 icmadan qəbul edilmiş layihələrin Texniki təsvirinin ilkin əl yazma variantı hazırlanarq "Ümid" SİD İB tərəfindən təkmilləşdirilmişdir.

**İcma mikrolayihələrinin icrası:** SEDA layihəsi çərçivəsində Aran və Şimal regionları üzrə 16 icmada ümumi uzunluğu 31230 m yol təmir edilmiş, 2 icmada isə səyyari xeyir-şər mağarı layihəsi icra edilmişdir. 18 icmada icra edilmiş 18 layihədən ümumilikdə 43,338 nəfər faydalanmışdır.

**Açılış mərasimləri:** Şimal və Aran regionları üzrə 10 icmada icra olunmuş layihələrin açılış mərasimləri keçirilmişdir.

## *Yaxşı Təcrübələrin ötürülməsi:*

*Xaçmaz rayonunun Aşağı Zeyid, Quba rayonunun Alpan və Zərdabi, Aran regionu üzrə isə İmişli rayonunun Oruclu və Beyləqan rayonunun Aşağı Çəmənli icmalarında "Yaxşı təcrübələrin ötürülməsi" mövzusunda 4 mübadilə görüşü keçirilmişdir. Tədbirlərin keçirilməsində əsas məqsəd layihə icra etmiş icmaların əldə etdikləri yaxşı təcrübə və bacarıqların digər İcma İnkişaf Şura üzvlərinə ötürülməsi olmuşdur. Tədbirlər zamanı dəvət olunmuş digər icmalardan gəlmiş qonaqlarla birlikdə icra edilmiş layihələrə baxış keçirilmiş, ev sahibi icmanın layihə həyata keçirmə təcrübələri, layihələrin keyfiyyəti və dayanıqlığı istiqamətində fikir mübadilələri aparılmışdır.*



*24 iyul 2013- cü il tarixində, SEDA layihəsi çərçivəsində Aşağı Çəmənli icmasında "Yaxşı təcrübələrin ötürülməsi" məqsədilə tədbir keçirilimişdir. Tədbirin əsas məqsədi Aşağı Çəmənli icmasında həyata keçirilmiş "İcma daxili yolların təmiri" layihəsindən əldə edilmiş təcrübə və bacarıqların digər İcma İnkişaf Şura üzvlərinə ötürülməsi idi. Görüşdə "Ümid" SİD İB-nin əməkdaşları və "Ümid" SİD İB tərəfindən səfərbər olunmuş Aşıqalılar icmasının İcma İnkişaf Şurasının üzvləri iştirak edirdilər. Aşağı Çəmənli icmasının İİŞ koordinatoru və üzvləri öz təcrübə və bacarıqları haqqında, layihədə qarşiya çıxan problemlərdən və onları necə aradan qaldırdıqları haqqında qonaqlara məlumat verdilər və iştirakçıları maraqlandıran sualları cavablandırdılar. Qonşu icmadan gələn İİŞ üzvləri layihənin uğurla həyata keçirilməsi barəsində müzakirələr apardılar.*

## SEDA layihəsi üçüncü regionda fəaliyyətə başlamışdır:



Qaradağlı icmasında İİŞ-nın seçimi 1

SEDA layihəsi artıq Respublikada üçüncü zonanada- Gəncə-Qazax regionunun Goranboy və Samux rayonlarında aktiv fəaliyyətə başlamışdır. Layihənin başlaması ilə əlaqədar, layihə əməkdaşları Goranboy və Samux Rayon İcra Hakimiyyətlərində məlumatlandırma görüşləri keçirilmişlər.

SEDA layihəsi çərçivəsində əməkdaşlıq etmək məqsədi ilə Goranboy və Samux rayonlarının 51 bələdiyyəsini əhatə edən 73 icma tərəfindən maraq məktubları təqdim olunmuşdur. İlkin təhlil və araşdırmalardan sonra Goranboy rayonu üzrə 11 icma, Samux rayonu üzrə isə 10 icmanı əhatə edən qısa siyahı hazırlanmışdır.

Goranboy və Samux rayonları üzrə hədəf icmaların seçilməsi üçün, "Ümid" SİD İB-nin Bakı ofisində iclas keçirilmişdir. İclasda icmalar tərəfindən təqdim edilmiş məlumatlar əsasında, SEDA layihəsi çərçivəsində əməkdaşlıq olunacaq icmalar seçilmişdir. Hədəf icma kimi müəyyənləşdirilmiş 12 icmanın hər birinin bələdiyyə sədrinə SEDA layihəsinin Ölkə Direktoru T.Madiqanın imzası ilə "Əməkdaşlıq" məktubları təqdim olunmuşdur. Layihə çərçivəsində hədəf icmalardan 11-də SEDA layihəsi barədə məlumatların verilməsi məqsədi ilə yerli kənd İcra Nümayədələri, Bələdiyə və icma üzvlərinin iştirakı ilə Ümumi İcma Görüşləri keçirilmişdir. Görüşlərdə "Ümid" SİD İB-in əməkdaşları tərəfindən SEDA layihəsi, komponentləri, məqsəd və vəzifələri, layihənin prosedurları və fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilmiş, gələcək əməkdaşlıq imkanları müzakirə edilmişdir. Bu görüşlərlə yanaşı Goranboy rayonunun Qaradağlı, Xoylar, Goranlı və Samux rayonunun Ziyadlı, Seyidlər, Əlibayramlı icmalarında İİŞ-nın tərkibinin müəyyənləşdirilməsi üçün Yerli Bələdiyyə, Ərazi İcra nümayəndəsi və icma üzvlərinin iştirakı ilə 6 Ümumi İcma Yığıncağı keçirilmişdir. Yığıncaqlarda icma üzvləri tərəfindən təklif edilən namizədlər içərisindən gizli səsvermə yolu ilə 6 icmada İİŞ üzvləri seçilmişdir. Yaradılmış İİŞ-nın bilik, bacarıq və vərdişlərini artırılması üçün təlimlər və Dəyirmi masaların keçirilməsinə başlanılmışdır.



Goranlı icmasında ümumi icma görüşü

**Şüarımız:**

**"İnsanlara Mühit verin, onlar xariqələr yaradacaq.."**

## Ünvanlarımız

**Baş ofis:**
Bakı şəhəri, Ə.Cavad küç.-7A
Tel./ Faks (+99412) 434 53 15; (+99412) 434 96 98
E-poçt ünvanı: office@umid-hsdm.com

**Bakı sahə ofisi:**
Nərimanov r-nu., Orucəliyev küç.- Q-46
Tel: (+99412) 437 82 39

**Sumqayıt sahə ofisi:**
6-cı mkr-n, C. Məmmədquluzadə küç.
Tel: (+99418) 642 55 18

**Gəncə regional ofis:**
Süleyman Rəhimov küç.-30
Tel: (+99422) 57 48 62
Katel: (+99912) 417 96 98

**Quba regional ofis:**
Məhəllə 32/33
Tel: (+99423) 335 59 58

**İmişli regional ofis:**
H.Əliyev pr., ev 88
Tel: (+99421) 246 15 40